**Qibləliyeva A.E.♦**

**UOT: 341.01**

## Gender əsaslı inkişaf sahəsində konvension mexanizmlərin rolu

**Xülasə:** Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən gender bərabərliyinə yönəldilmiş beynəlxalq tədbirlərə qoşulmuş və bir çox saziş və təşəbbüslərin iştirakçısıdır. Azərbaycanın nümayəndə heyətləri gender inkişafına həsr olunmuş beynəlxalq tədbirlərdə mütəmadi olaraq iştirak edirlər. Azərbaycan Respublikası 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına (CEDAW) qoşulduqdan sonra qüvvədə olan normativ hüquqi aktlara və formalaşmış təcrübəyə qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində dəyişikliklər edilmişdir.

**Açar sözlər:** norma və prinsiplərin formalaşması; normativ-hüquqi bazanın zənginlənləşməsi; hüquq normaların bərqərar olması; implementasiya öhdəlikləri; insan hüquqları və azadlıqlarının təminatı.

Azərbaycanda qadın hüquqları ilk hüquqi formada 1918-ci il 28 mayda Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə qorunur. AXC-nin dövründə qadınlara bərabərhüquqluluq, prinsipini seçmək və seçilmək hüququnu vermişdi [4, s.175]. Bu qanunla Azərbaycan Şərqdə qadınları seçmək və seçilmək hüquqi verən ilk ölkə idi.

Müasir dövrdə Azərbaycanda gender bərabərliyi 1995-ci ildə qəbul olunmuş konstitusiyanın 25-ci maddəsində kişi və qadınlara bərabər hüquqları göstərilir [1]. Kişi və qadın arasında hüquq və azadlıqlar bərabərliyi və cinsi mənsubiyyətə görə ayrı seçkiliyi qadağan olunması Əmək məcəlləsi, Ailə məcəlləsi, Cinayət məcəlləsi və digər qanunlarda öz əksini tapmışdır. Bu haqda 2006-cı ildə qəbul olunmuş "Gender Bərabərliyi təminatları haqqında" qanun qəbul edilmişdi. 2010-cu ildə Azərbaycan Respublikasında Milli Məclisdə "Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Eyni zamanda ölkəmiz CEDAW Konvensiyasına, Pekin Bəyannaməsi və Fəaliyyət platformasına, Minilliyin Bəyannaməsi və Miniilliyin İnkişaf məqsədlərinə qoşulmuşdur. 2011-ci ildə Azərbaycanda qızlar üçün nigah yaşı qanunvericiliklə 18 yaşa çatdırılıb. Əmək Məcəllənin 240-cı maddəsinə görə hamilə və 3 yaşına çatmamış uşağı olan qadınlara əmək müqavilələrin bağlanmasından imtina etmək yolverilməzdir [8, s.7]. Hətta pensiya yaşlarına görə də qadınlara imtiyazlar verilir. Belə ki, qadınlar kişilərdən 3 il tez pensiya hüququndan istifadə edə bilərlər

Müstəqil Azərbaycan Respublikası gender bərabərliyinin qorunması məqsədilə bu istiqamətdə müxtəlif konvensiyaları, əsas beynəlxalq sənədləri qəbul etmiş və onlara bilavasitə qoşulmuşdur. Azərbaycan Respublikasında kişi və qadınların hüquq bərabərliyi ölkənin əsas qanunu ilə təmin edilir. Konstitusiyamız kişi və qadınların bərabər hüquq və azadlıqlarını təsbit edir və insanların hüquq və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını hərtərəfli qadağan edır [5, s.

♦ **Qibləliyeva Aytac Elburus qızı -** BDU-nun İnsan hüquqları və İnformasiya YUNESCO kafedrasının doktorantı (Azərbaycan). E-mail: aytac.giblaliyeva@gmail.com

7].

Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən dövr ərzində Azərbaycan Respublikasında demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır. Hazırda ölkədə vətəndaş cəmiyyəti inkişaf etməkdədir. Azərbaycanda insan hüquqları, təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat, sosial məsələlər, ekologiya və s. xüsusi olaraq qeyd edək ki, o cümlədən gender bərabərliyi sahələrində xeyli işlər görülmüş və nailiyyətlər günbəgün artmaqdadır.

Bu gün Azərbaycan Respublikasında əldə edilmiş uğurlarlardan biri də gender bərabərliyinin təminatıdır və bu istiqamətdə görülmüş işlər qabaqcıl dünya standartlarına uyğun gəlir. İlk növbədə qeyd edilməlidir ki, qadınların hüquqlarının müdafiəsi və təminatı bir sıra beynəlxalq-hüquqi aktlarda təsbit edilmişdir. Qadın hüquqları sferasında beynəlxalq standartların formalaşdırılması,onlara əməl edilməsi edilməsi üzrə beynəlxalq hüquqi nəzarət mexanizmlərin yaradılması kimi mühüm məsələlər daim beynəlxalq hüququn müsbət təsirinə məruz qalmaqdadır [6, s. 135].

Azərbaycanda insan hüquqlarının inkişafının templərinə müəyyən obyektiv, tarixi səbəblər mənfi təsir göstərmişdir. 1988-ci ildən etibarən Ermənistan Respublikası ilə davam edən münaqişə və 1 milyona yaxın qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, keçmiş SSRİ məkanında iqtisadi münasibətlərin qırılması və ümumi siyasi-iqtisadi tənəzzül, yeni beynəlxalq tərəfdaşlıqların yaradılması tələbləri, xarici dövlətlər tərəfindən müdaxilələr və nüfuz dairəsi uğrunda geosiyasi oyunlar müstəqilliyini yenicə qazanmış gənc Azərbaycan dövləti üzərinə ağır iqtisadi, sosial, siyasi təzyiqlər qoymuşdu.

Gender bərabərliyi iqtisadi iştirak və qərarqəbuletmə də daxil olmaqla, cinsindən və mənsubluğundən asılı olmayaraq ehtiyat və imkanlardan istifadə etməkdə bərabərlik anlamına gəlir. Bu, cinsindən asılı olmayaraq fərqli davranışların, istəklərin və ehtiyacların bərabər qiymətləndirilməsi deməkdir. Eyni zamanda o, kişi və qadınlar arasında məhdudiyyətlər olmadan onların şəxsi qabiliyyətlərini inkişaf etdirmək və seçim etmək azadlığıdır. Bu, kişi və qadınların eyni olması demək deyildir. Gender bərabərliyi qadın və kişilərin ehtiyaclarına uyğun olaraq ədalətliliyi nəzərdə tutur. Burada yalnız hüquqlar, faydalar, öhdəliklər və imkanlar baxımından ekvivalent hesab edilən bərabərlik nəzərdə tutulur [11, s. 335].

Gender bərabərsizliyi ilə əlaqədar olaraq, qadınlar və qızlar hal-hazırda kişilər və oğlanların təmin edildiyi hüquq, imkan və çıxışlardan faydalana bilmirlər. Buna görə də qadınların inteqrasiyası, dəstəklənməsi və səlahiyyətləndirilməsini sürətləndirən siyasətlər gender bərabərliyini təminetmə yolunda lazımi bir başlanğıcdır. Ancaq bu da nəzərə alınmalıdır ki, gender bərabərliyi sadəcə qadın və qızların maraqlarına cavab verən məsələ deyil, bütün cəmiyyətin faydalanacağı bir hədəfdir. İstər iqtisadi, istər siyasi, istərsə də sosial inkişaf göstəricilərinin təsdiq etdiyi kimi, gender bərabərliyi sabitlik, inkişaf və rifahın önəmli daxili komponentidir [9, s. 211].

Ümumbəşəri insan hüquqları mədəniyyətinin qurulmasına yönəlmiş insan hüquqları qloballaşan dünyanın özü ilə gətirdiyi iqtisadi, sosial, siyasi və mədəni həyatın problemlərinin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir.

Gender probleminin həll edilməsi məqsədilə Azərbaycan Respublikasında bir sıra tədbirlər həyata keçirilməkdədir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və səmərəli fəaliyyəti nəticəsində ölkədə bir çox gender problemi aradan qalxmaqdadır. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz növbəsində yerli və

beynəlxalq QHT-ləri ilə sıx əməkdaşlıq edir. Gender bərabərliyinə və cəmiyyətdə qadınların statusunun yüksəldilməsinə aid normativ aktların işlənib hazırlanmasına və inzibati fəaliyyətlərə yerli və beynəlxalq qeyri-hökumət təşkilatları yaxından cəlb olunurlar. Gender problemlərinin səmərəli həlli üçün şəbəkənin yaradılmasında qadın qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatların rolu danılmazdır.

1995-ci il Qadınların vəziyyətinə dair IV Ümumdünya Pekin Konfransında qeyd edilən qadınların ictimai həyatda hərtərəfli bərabər iştiraklarını məhdudlaşdıran amillərin – onların insan hüquqlarından faydalanmaq imkanlarından məhrum olmaları, təhsil və peşə hazırlığına, yaşayış imkanı və iqtisadi müstəqilliyə, həmçinin qərarların qəbulu prosesində iştirak etməyə nail ola bilmədikləri, bütün həyatları boyu onların ayrı-seçkilik, iqtisadi-sosial ədalətsizlik və çatışmamazlıqlarla hər gün rastlaşdıqları kimi problemlərin aradan qaldırılması uğrunda dövlət səviyyəsində müvafiq işlər aparılmalıdır.

Azərbaycan Respublikası 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına (CEDAW) qoşulduqdan sonra qüvvədə olan normativ hüquqi aktlara və formalaşmış təcrübəyə qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində dəyişikliklər edilmişdir. Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyası"nın Fakultativ Protokolu Azərbaycan Respublikasının 2001-ci il 16 fevral tarixli Qanunu ilə təsdiq edildikdən sonra isə dövlət qadınların hüquqlarının pozulmasının qarşısının alınması, qadınlara öz hüquqlarından tam istifadə etmək imkanı verən bir mühitin yaradılması formalaşmağa başlamışdır.

Qadınların cəmiyyətdə hərtərəfli rol oynaması, onların verdiyi töhfələrin qiymətləndirilməsi, öz yaşam tərzləri ilə bağlı seçimlər etməsi və zorakılıq qorxusundan azad yaşaya bilməsinə imkan yaradan cəmiyyət və iqtisadi mühiti yaratmaq öhdəliyinin qəbul edilməsi gender problemlərinin həllinə yönəlmiş siyasətin uğurlu həyata keçirilməsinə zəmin yaratmışdır. Adı çəkilən Qanunun 3-cü maddəsi həm də birmənalı olaraq, müəyyən sahələrdə qadınların xeyrinə bəzi müsbət ayrı-seçkiliyik tədbirlərinin görülməsini nəzərdə tutur. Bununla həmin maddə aşağıdakıların ayrı-seçkilik xarakterli olmadığını şərtləndirmiş olur: qadınlar üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş güzəştlər, imtiyazlar və əlavə təminatlar; kişilər üçün həqiqi hərbi (alternativ) xidmətə çağırış; kişi və qadınlar üçün qanunla müəyyənləşdirilmiş fərqli pensiya və nikah yaşı; Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 15-ci maddəsinə uyğun olaraq, ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması; kişi və qadınlar üçün cəzaçəkmə müəssisələrində fərqli şəraitin yaradılmasgender bərabərliyinin təminedilməsi məqsədi ilə xüsusi tədbirlərin həyata keçirilməsini qeyd etmək olar..

Azərbaycan Respublikasında gender bərabərliyi haqqında qanunvericilik tədbirlərindən aşağıdakıları qeyd etmək olar:

1. 2005-ci ilin iyun ayında insan alverinə qarşı mübarizənin möhkəm hüquqi və təşkilati əsasını təşkil edən "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə qadınların müdafiəsinin möhkəmləndirilməsini nəzərdə tutan bir neçə mühüm dəyişiklik edilmişdir 144.1-ci maddə (İnsan alveri), 144.2-ci maddə (məcburi əmək), 316.1-ci maddə (insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər insan alverinin Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil

cinayətkarlığa qarşı Konvensiyası"na, həmin Konvensiyaya Əlavə Protokollara və bu sahədəki digər beynəlxalq müqavilələrə uyğun olaraq cinayət kimi tanınması baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin dəyişikliklərə aşağıdakı cinayət əməllərinə görə mütənasib cəzaların verilməsi daxildir:

•İnsan alveri; İstismar məqsədilə şəxsin sərhəddən qanunsuz keçirilməsi; Şəxsin gizlədilməsi;

•hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə; İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama, yaxud qəsdən yayma.

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə "Cinsi qısnamaya məruz qalmış işçilərə qarşı təzyiqin göstərilməsi" adlı yeni 60.1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən hər hansı cinsi təqib xarakterli hərəkətlərdən şikayət etmiş istənilən işçiyə qarşı təzyiq göstərmiş vəzifəli şəxslər ağır cərimə ilə cəzalandırılacaqlar.

4. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun hərtərəfli həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil Qanununa, dövlət tərəfindən bütün təhsil müəssisələrinə qəbul zamanı kişilərlə qadınlara bərabər hüquqların verilməsi, tələbələrin  təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanların yaradılmasının təmin edilməsini nəzədə tutnan dəyişikliklər edilmişdir.

"Azərbaycan Respublikasının Ailə Məcəlləsi"nin 3-cü bölmə, VI fəsil, 29 və 30-cu maddələri ər-arvadın hüquq və vəzifələrinə həsr olunmuşdur. 29-cu maddənin I bəndində göstərilir: "Azəbaycan Respublikası Konstitusiyasın"da təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər". Analıq atalıq, uşaqların tərbiyəsi və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvad hüquq bərabərliyi prinsipinə uyğun olaraq birgə həll edilir. Nigah zamanı ər-arvad tərəfindən qazanılmış, əldə edilmiş əmlak ümumi şəxsi mülkiyyət hesab olunur. Boşanma birinin və ya hər ikisinin təşəbbüsü ilə həyata keçirilə bilər, nigah yalnız məhkəmə tərəfindən pozula bilər.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 29 dekabr 2012-ci il tarixində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdir. Fərmanda göstərilir ki, "Ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, habelə sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, eləcə də cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq Azərbaycan dövlətinin fəaliyyətində mərkəzi yer tutur [3]. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əks olunan mühüm əhəmiyyət kəsb edən istqamətlərdən biri də "insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması"dır. Konsepsiyada əks olunan bu istiqamət üzrə Dövlətin prioritet verdiyı əsas sahələrdən ikisini ayrıca qeyd etmək istərdik. Bunlar aşaığdakılardır: sosial müdafiə sisteminin təkmilləşdirilməsi və gender bərabərliyinin təmin olunması və ailənin inkişafı.

Sənədin "Sosial müdafiə sisteminin təkmilləşdirilməsi" fəsli bir sıra sosial sahələri, o cümlədən pensiya və digər sosial sığorta məslələrini, əhalinin kəmiyyət və keyfiyyət artımı məsələlərini əhatə etməklə yanaşı əmək münasibətlərinnin təkmilləşdirilməsinə, o cümlədən əməyin ödənilməsi, iş yerlərində sosial müdafiə məsələlərinin həlli, təhlükəsiz və sağlam əmək şəraitiinin təmin olunması, əmək və məşğulluq sahəsində milli informasiya sistemi yaradılması sahəsində fəaliyyətlər, əmək miqrasiyası məsələlərinin təkmilləşdirilməsi, məşğulluq sahəsində faktiki

bərabərliyin, o cümlədən əlilliyi olan şəxslərin və qadınların əmək bazarına çıxışının asanladırılmasına yönələn strateji hədəfləri müəyyən etmişdir [3].

Əməyin ödənilməsində bərabərlik prinsipinin tətbiqinə dair müddəa həmçinin Əmək Məcəlləsi və digər normativ-hüquqi aktlarda da əks olunmuşdur. Gender bərabərliyinin təminatları haqqında Qanunun 9.1. maddəsinə görə "Cinsindən asılı olmayaraq bir iş yerində işləyən, eyni ixtisas dərəcəsinə malik olan, eyni iş şəraitində işləyən, eyni dəyərli işi yerinə yetirən işçilərə əməkhaqqı, həmçinin mükafatlar və işçini həvəsləndirmək üçün ödənilən digər ödənişlər eyni ödənilməlidir" [2].

Lakin, qanunvericiliyin qadınlar üçün qoyduğu məhdudiyyətlər onların bəzi iş yerlərində və peşələrdə işləməsinə imkan vermir ki, bu iş yerləri də bir qayda olaraq daha yüksək əmək haqqı ödənişləri olan yerlərdir. Bu baxımdan qadınlar ənənəvi olaraq daha az əmək haqqı ödənişi olan iş yerlərində çalışırlar. Qanunun 10-cu maddəsinin 1-ci bəndində göstərilir ki, "işə qəbul haqqında elanlarda kişi və qadınlara fərqli tələblərin irəli sürülməsinə, hər hansı cinsin nümayəndələrinə üstünlük verilməsinə, iş axtaranın ailə vəziyyəti və ya şəxsi həyatı barədə məlumatlar sorğusuna yol verilmir" [2].

Əmək Məcəlləsində ayrı-seçkilik hallarını, o cümlədən qadınlara münasibətdə ayrı-seçkilik hallarını qadağan edən müddəalar vardır. Əmək Məcəlləsinin 240-cı maddəsinə görə hamilə və ya 3 yaşına çatmamış uşağı olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. Bu halda qadının işəgötürəndən izahat tələb etmək və məhkəməyə müraciət etmək hüququ vardır.

Bununla belə yuxarıda sadalanan müddəalar effektiv və işlək deyildir. Belə ki, praktikada onun tətbiqi indiyə qədər real əksini tapmamışıdr. Belə halların kifayət qədər çox olmasına baxmayaraq məhkəmələrə hər hansı müraciət daxil olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı bütün dövlət strukturlarında qadınlarla kişilərin eyni səviyyədə təmsil olunmasını təmin edir.

1992-ci ildə Azərbaycan Respublikası BMT-nin Qadınların siyasi hüquqları haqqmda Konvensiyasına, 1996-cı ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna qoşulmuşdur.

Müxtəlif konvensiyalara qoşulmaqla yanaşı, ölkə daxilində də qadınların hüquq və azadlıqlarınm qorunması istiqamətində bir çox normativ-hüquqi aktlar qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı bütün dövlət strukturlarında qadınlarla kişilərin eyni səviyyədə təmsil olunmasını təmin edir. Bundan başqa, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunlarını, Ailə Məcəlləsində edilən dəyişiklikləri bu sahədə ölkəmizdə həyata keçirilən hüquqi islahatların bariz nümunəsi kimi göstərmək olar. Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrdə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s. məcəllələr) təsbit olunmuşdur.

Azərbaycan qadın hüquqlarının müdafiəsi sahəsində bir sıra mühüm beynəlxalq müqavilələrə qoşulmuşdur, bunların sırasında BMT-nin bir neçə konvensiyasının iştirakçısıdır. Bu müqavilələrə misal olaraq, 20 dekabr 1952-ci il tarixli "Qadınların siyasi hüquqları haqqında" Konvensiyanı (4 avqust 1992-ci il tarixdə ratifikasiya edilib), 1962-ci il tarixli "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması" haqqında Konvensiyanı (31 may 1996-cı il tarixdə), 18 dekabr 1979-cu il tarixli "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının

ləğv olunması haqqında" Konvensiyanı (30 iyun 1995 il tarixdə), həmçinin Beynəlxalq Əmək Təşkilatının (BƏT) qadınların əmək və məşğulluq sahəsində qəbul etdiyi "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında" 45 saylı BƏT Konvensiyasını, "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında" 100 saylı BƏT Konvensiyasını, "Analığın mühafizəsi haqqında" 103 saylı BƏT Konvensiyasım, "Əmək və məşğulluq sahəsində ayrı- seçkilik haqqında" 111 saylı BƏT Konvensiyasım və 29 yanvar 1957-ci il tarixli "Ərdə olan qadınm vətəndaşlığı haqqında" Konvensiyanı, 1992-ci il 4 avqust tarixində BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyaya qoşulmasını qeyd etmək olar.

6 mart 2000-ci il tarixdə qadın və kişilərin hüquq bərabərliyini təmin etmək, xüsusilə dövlətin idarə olunmasında lazımi səviyyədə onları təqdim etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında Fərman imzalamışdır.

10 oktyabr 2006-cı il tarixdə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir.

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununa əsasən, nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinədən keçmələri ilə bağlı tələb 2015-ci il iyunun 1-dən qüvvəyə minmişdi.

Konkret olaraq Azərbaycan Respublikası "Mülki və siyasi hüquqlar haqqında" 19 dekabr 1966-cı il tarixli Beynəlxalq Pakta, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 19 dekabr 1966-cı il tarixli Beynəlxalq Pakta, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 21 dekabr 1965-ci il tarixli Beynəlxalq Konvensiyaya, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 18 dekabr 1979-cu il tarixli Konvensiyaya, "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" 4 fevral 1985-ci il tarixli Konvensiyaya, 20 noyabr 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasına və BMT-nin Baş Məclisi tərəfindən 2006-cı il 13 dekabr tarixində qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya və bu sənədin Fakültativ Protokoluna qoşulmuşdur. Bu sənədin Fakültativ Protokolu 2007-ci ilin 30 mart tarixindən üzv dövlətlərə imzalanmaq üçün açıq elan edilmiş və 2008-ci il 3 may tarixində qüvvəyə minmişdir. Eyni zamanda, Azərbaycan Respublikası "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın, "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiyanın əlavə protokollarını da imzalamışdır.

1979-cu il 8 dekabr tarixində qəbul edilmiş "Qadınlara qarşı ayrı-seçkliyin bütün formalarının ləğv edilməsi" Konvensiyası dövlətləri qadınlara qarşı ayrı - seçkiliyin bütün sahələrdə ləğvinə çağıraraq, onları hüquqi və real səviyyədə qadın - kişi bərabərliyini təmin etməyə məcbur edir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixində olan dəyişiklik və əlavələr). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. [Elektron resurs]. URL: http://www.mlspp.gov.az/az/pages/4/125
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakışəhəri, 29 dekabr 2012-ci il. [Elektron resurs]. URL: http://www.president. az/articles/7022
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. – Bakı: Lider, 2005. – 472 s.
5. BMT-nin Əhali Fondu Azərbaycanda (UNFPA) -Baku, 2006.
6. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. – Bakı: Nurlan, 2019. – 352 s.
7. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu // 10 oktyabr 2006-cı ildə təsdiq edilmişdir, № 150- IIIQ. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/12424
8. Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunun təhlili. Bakı, 2015. [Elektron resurs] / URL: qanun.az/framework/12424#_edn1
9. Азаров А.Я. Система защиты прав и свобод человека. - М.: Московская школа прав человека, 2010. – 340 с.
10. Энтин М.Л. Международные гарантии прав человека. (Практика Совета Европы). - М.: из-во Моск. Независимого ин-та межд. права 2000.
11. Shelton D. İnternationals Human Rights Law, Oxford, 2011.
12. Starke I.G .An İntroductions to İnternational Law. London, Butterworths, 2002.

**Qiblaliyeva A.E.**♦

**UDC: 341.01**

## The role of conventional mechanisms in the field of gender-based development

**Abstract:** It should be noted that the trend of recognition of human rights. The article mentions that the Republic of Azerbaijan has joined international measures aimed at gender equality since its independence and is a participant in many agreements and initiatives. Azerbaijani delegations regularly participate in international events dedicated to gender development. After the Republic of Azerbaijan joined the United Nations Convention on the Elimination of All Forms of

♦ **Qiblaliyeva Aytac Elburus** – doctoral student of the Department of Human Rights and UNESCO of Baku State University (Azerbaijan). E-mail: aytac.giblaliyeva@gmail.com

Discrimination against Women (CEDAW) on June 30, 1995, changes were made to the normative legal acts and established practice in the direction of eliminating discrimination against women.

**Keywords:** formation of norms and principles; enrichment of the normative-legal base; establishment of legal norms; implementation obligations; guarantee of human rights and freedoms.

## References

1. The Constitution of theRepublic of Azerbaijan // adopted on November 12, 1995 (amendments and additions dated September 26, 2016). Available at: https://e-ganun.az/framework/897 (in Azerbaijani).

2. Labor Code of the Republic of Azerbaijan. Available at: http://www.mlspp.gov.az/az/pages/4/125 (in Azerbaijani).

3. Decree of the President of the Republic of Azerbaijan on approval of the “Azerbaijan 2020: vision of the future” Development Concept. Baku, December 29, 2012. Available at: http://www.president.az/articles/7022 (in Azerbaijani).

4. Encyclopedia of the Azerbaijan Democratic Republic. In two volumes. Volume II. Baku, 2015 (in Azerbaijani).

5. United Nations Population Fund in Azerbaijan (UNFPA) Baku, 2006.

6. Aliyev A.I. Human rights. Textbook. Baku, Nurlan Publ., 2019, 352 p. (in Azerbaijani).

7. Law of the Republic of Azerbaijan on ensuring gender equality // approved on October 10, 2006, No. 150- IIIQ. Available at: https://e-qanun.az/framework/12424 (in Azerbaijani).

8. Analysis of the Law of the Republic of Azerbaijan on guarantees of gender (male and female) equality. Baku, 2015. Available at: qanun.az/framework/12424#_edn1 (in Azerbaijani).

9. Azarov A.Я. System of protection of human rights and freedom. Moscow, Moscow School of Human Rights Publ., 2010, 340 p. (in Russ.).

10. Entin M.L. International guarantee of human rights. (Practice of the Council of Europe). Moscow, Moscow Independent Institute of Intl. rights Publ., 2000 (in Russ.).

11. Shelton D. International Human Rights Law, Oxford, 2011.

12. Starke I.G. An Introductions to International Law. London, Butterworths, 2002.

**Гиблалиева А.Э.**[♦]

**УДК: 341.01**

## Роль традиционных механизмов в сфере гендерного развития

**Аннотация:** Азербайджанская Республика с момента обретения независимости присоединилась к международным мерам, направленным на гендерное равенство, и является участницей многих соглашений и инициатив. Делегации Азербайджана регулярно участвуют в международных мероприятиях, посвященных гендерному развитию. После того, как 30 июня 1995 года Азербайджанская Республика присоединилась к Конвенции ООН о ликвидации всех форм дискриминации в отношении женщин (CEDAW), в нормативные правовые акты и сложившуюся практику были внесены изменения в направлении ликвидации дискриминации в отношении женщин.

**Ключевые слова:** формирование норм и принципов; обогащение нормативно-правовой базы; установление правовых норм; обязательства по их реализации; гарантии прав и свобод человека.

### Библиография

1. Конституция Азербайджанской Республики // принята 12.11.1995 г. (с измен. и дополн. на 26.09.2016 г.). [Электронный ресурс]. URL: https://e-ganun.az/framework/897 (на азерб.яз.).

2. Трудовой Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: http://www.mlspp.gov.az/az/pages/4/125 (на азерб. яз.).

3. Указ Президента Азербайджанской Республики об утверждении Концепции развития «Азербайджан 2020: видение будущего». Баку, 29.12.2012 г. [Электронный ресурс]. URL: http:// www.president.az/articles/7022 (на азерб. яз.).

4. Энциклопедия Азербайджанской Демократической Республики. В двух томах. Том II. Баку: Лидер, 2005. – 472 с. (на азерб. яз.).

5. Фонд народонаселения ООН d Азербайджане (ЮНФПА). - Баку, 2006 г.

6. Алиев А.И. Права человека: Учебник. – Баку: Нурлан, 2019. – 352 с. (на азерб. яз.).

7. Закон Азербайджанской Республики об обеспечении гендерного равенства // утвержден 10.10.2006 г. № 150-IIIQ. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/12424 (на азерб. яз.).

8. Анализ Закона Азербайджанской Республики о гарантиях гендерного (мужского и женского) равенства. [Электронный ресурс]. URL: qanun.az/framework/12424#_edn1 (yf fpth,/ zp/)/

♦ **Гиблалиева Айтач Эльбурус кызы** - докторант кафедры права человека и ЮНЕСКО БГУ (Азербайджан). E-mail: aytac.giblaliyeva@gmail.com

9. Азаров А.Я. Система защиты прав и свобод человека. - М.: Московская школа прав человека, 2010. – 340 с.

10. Энтин М.Л. Международная гарантия прав человека. (Практика Совета Европы). - М.: из-во Моск. Независимого ин-та межд. права, 2000.

11. Shelton D. International Human Rights Law, Oxford, 2011.

12. Starke I.G. An Introductions to International Law. London, Butterworths, 2002.